# Bir kitablıq sözün yaddaqalan məqamları

## Orta məktəbdə tarixi mənə sevdirən müəllimim Vəli Heydərovun akademik səviyyədə olduğunu indi anlayıram



Məhəmməd Nərimanoğlu

***Kəlbəcərdə mənə orta məktəbdə dərs deyən də, deməyən də, müəllimlərimi heç vaxt unutmadım. Bəziləri haqqında gücüm yetən qədər yazdım, tanıtdım. Şagird kimi, yazdığım məqalələr qarşısında suala da dönən anlarım oldu.***

***Bu dəfə də həmin hisslərlə baş-başa daha bir müəllimim haqqında ürəyimdən keçənləri, xatırladıqlarımı, yaddaşıma güvənib qələmə alıram. O, şəxsiyyətdir, sözün həqiqi mənasında. Ona təəssüf edirəm ki, bəzi müəllimlərimiz haqqında geninə-boluna, bəzən də boğazdan yuxarı, nəyin və kimlərinsə xatirinə, müəllim olmayanı belə bu şərəfli ad altında 'tərifini ala buluda çıxarmışıq'. Lakin Kəlbəcər şəhər 2 nömrəli orta məktəbin tarix müəllimlərindən biri olmuş Heydərov Vəli Calal oğlunun adını dilimizə, qələmimizə gətirməmişik. Nədən?! Ailəsi bizdən xahişmi etməliydi?! Ya da oğul-uşaqlarından yarınmağımız üçün vəzifəlimi olmalı idi?! Bax, belə günahlarımız da az olmayıb: birinin tərifini göylərə qaldıranda belə sakitlərimiz, özlərini gözə soxmağı bacarmayan, şəxsiyyətini hər ad-sandan, şan-şöhrətdən uca bilənlərimiz kölgədə qalıb, qısılıb bir küncə, bizim kimi qələm adamlarının insafının, vicdanının nə vaxtsa oyanacığını gözləyiblər.***

Kəlbəcəri tanıyan və tanımayanlara bir ünvan göstərmək istəyirəm. Çünki indi Kəlbəcər şəhərində nə həmin məktəblərimiz qalıb, nə də məhəllə-məhəllə evlərimiz.

Vəli Heydərovun qısa tərcümeyihalını birlikdə oxuyaq, sonra Kəlbəcər şəhər 2 nömrəli orta məktəbə və müəllimimin Azadlıq prospektindəki (Kəlbəcər şəhərinin yalnız bir mərkəzi küçəsi var idi - şəhərin girəcəyindən - abidənin yanından başlayaraq, "Yeni şəhər"ədək uzanırdı. Adı əvvəlcə Lenin prospekti idi, müstəqilliyimizin bərpasından sonra Azadlıq qoyulmuşdu, indi əsər-əlamət belə yoxdu, ermənilər silib yer üzündən) evinə tərəf piyada gedərik ki, bəzi məhləri də sizə göstərərəm.

***... Bu yazının qələmə alınmasında mənə mənəvi dəstək olan, Vəli müəllimin qardaşı Əli əminin qızı Nailə müəllimə Heydərova yazır: "... Qayğıkeş ailə başçısı, çox savadlı müəllim, el ağsaqqalı Vəli Calal oğlu Heydərov 1938-ci ildə Kəlbəcərdə anadan olmuşdu. Səkkizillik təhsilini Kəlbəcər qəsəbə 1 N-li məktəbində almışdı. 1956-cı ildə Şuşa Pedaqoji Texnikumuna daxil olub. 1958-ci ildə oranı "Fərqlənmə" diploma ilə bitirərək, Kəlbəcərə, ilk təhsil aldığı 1 N-li məktəbə qayıtmışdı. Orada ibtidai sinif müəllimi kimi işə başlamışdı.***

Müəllimlik peşəsini sevdiyinə görə, fəaliyyətə başlayandan diqqəti özünə çəkdi. Bu diqqət yalnız dərs dediyi şagirdləri, ya da ki, onların ata-anasının deyildi, həm də rayon maarif şöbəsinin rəhbərliyi tərəfindən göstərilmişdi.

Ali təhsil almaq Vəli əmimin arzusu olub. Ona görə də o, pedaqoji fəaliyyətlə məşğul ola-ola öz üzərində çalışıb. Nəticəsi sevindirici olub. O, sevdiyi peşə ixtisasının incəliklərini öyrənmək üçün fürsət qazanıb: 1966-cı ildə Gəncə Dövlət Pedaqoji İnstitutunun Tarix fakültəsinə qəbul olub. 1972-ci ildə ali təhsilini başa vuran Vəli Heydərov yenə də öz doğma yurduna, Kəlbəcərə qayıdıb. Kəlbəcər qəsəbə 2 nömrəli orta məktəbinə tarix müəllimi təyin edilib. İctimai fəallığı ilə diqqəti çəkdiyi üçün qısa zamanda məktəb ilk partiya təşkilatının katibi kimi ciddi, məsuliyyətli ictimai vəzifə ona həvalə edilib".

Mən də nailə müəllimənin FS-səhifəsindən oxuduğum bu bir bənd qoşmasını bura bənd edirəm. Yəni, Nailə müəllimə Qəmkeşin nəslindən olduğunu unutmayıb. Tanrının verdiyi qələm və sözdən uzaq deyil:

**"Apar bulaqların üstünə məni.**
**Ver orda soyuğa,çiskinə məni.**
**Qaçqınlıq salıbdı pis günə məni.**
**Bu pis günlərimdən tez qopar məni**
**A dağlar yanına gəl apar məni..."**



**Dərd budur ki, dərs dediyi hər bir şagirdin qəlbində özünə abidə ucaldan müəllimlərimiz dünyadan köçəndə son ehtiramımızı bildirə bilmirik. Axı, Vəli müəllim kimi ziyalılarımız ömürlərini yeni nəsillərin yalnız təlim-tərbiyəsinə deyil, həm də Vətəni sevməyə, onun tarixini bilməyə həsr edib.**
**Budur, Kəlbəcərdən didərgin düşdüyümüz illərin bizə verdiyi dərdlərdən biri: ayrılıq var, ölümdən də betərdi.**

### Süngüyə çevrilib qan ağlayan qələm

...Bu da illərlə həsrətini çəkdiyimiz Kəlbəcər. Burada doğulmayan, amma həsrətini çəkənlərə tanışlıq üçün deyək ki, şəhər iki dağ çağıyının arasında, sıldırım qayaların üsütündəki ensiz düzənlikdə salınıb. Tarixi minilliklərə gedib çıxan Kəlbəcərdə son məskunlaşma 500-600 ili əhatə edir. Dəfələrlə qəfil hücumlara məruz qalan Kəlbəcərdə sovetləşmə də asan başa gəlməyib. Bu tarixi yurdun qocaman nəsillərindən biri Məmmədusağıdır ki, Vəli müəllim də məhz o tayfadan boy verən ziyalılardan biri kimi tanınırdı.

Mənim yuxarı siniflərdə tarix müəllimim olan Vəli Heydərovu digər həmkarlarından fərqləndirən onun digərlərinkindən fərqli xarakteri idi. İxtisasını kamil bilən müəllimimin dərsləri də fərqlənirdi. Əslində, elə müəllimləri orta məktəbdə şagirdlər bir qədər sevə bilmirlər, çünki ciddi və tələbkar olurlar. Həmin məktəbdə də "Qara Bəhmən", direktor Azay Rəhimov, İsmayıl Camalov, Qədim Məmmədov, Nəcəf Məmmədov, Əmrullah Quliyev, Əhməd Fətəliyev, İdris Verdiyev, Ədil Cəfərovg kimi şagirdlərinin və məktəb kollektivinin sevimlisinə çevrilən, sayılıb-seçilən müəllimlər az deyildi.

***Vəli müəllimin haqqında xüsusi söz açmağım isə təsadüfi deyil. Biz öz tariximizi bilmirdik. Orta məktəbdə (elə ali məktəbdə də) bizə dünya tarixini, Rusiyanıng saxta tarixlərini keçirdilər. Azərbaycan tarixini isə Vəli müəllim kitabdan-dəftərdən yox, özünün başqa mənbələrdən öyrəndiklərini deyir, başa salırdı. Bax, buna görə də mən tarix müəllimimi çox istəyirdim. Balalarını da, ailəsini də yaxından tanıyırdım, sonralar, mən ailə qurduqdan sonra qonşu olmağımız da bizi bir-birimizə daha yaxından beləd olmağa imkan yaratdı.*** Lakin ali təhsil alıb rayona qayıdanda dil-ədəbiyyat, coğrafiya, riyaziyyatg hətta, kimya müəllimim Məcid də məndən incik düşdülər ki, niyə onların ixtisasını seçməmişəm. Lakin, bu da bir tale məsələsiydi. Budur, 30 ildir ki, əlimdə qələm Kəlbəcərin ictimai-siyasi, eləcə də ədəbi dünyasını araşdırır, yazıram. Bu, elə həmin müəllimlərimin mənə çəkdikləri əziyyətin nəticəsidir. Dünyadan köçənlərinin ruhu şad olsun, qalanlara cansağlığı diləyirəm. Mən öz istəyimlə aktyorluq-rejissorluq, sonradan isə jurnalistlik peşəsini seçib həyatımı həsr etmədim. Sanki ömrümün dolaylarında bu yollardan keçməli idim. Kəbəcərdə Xalq Teatrı yaratmağa başlayanda rayon işğal edildi. Kəlbəcər torpaq uğrunda şəhid verəndə qələmim süngüyə çevrilsə də, qan ağladı...

### Vəli müəllimin ailəsində nə var-nə yox...

İki oğlu, üç qızı var. Dəmək olar ki, ailədə boy atanların hamısı da müəllimlik peşəsinə bağlanıblar. Ata yolunun müqəddəsliyi bu ailədə unudulmayıb: qızları Qəmər, Mərmər, Qətibə xanım, həmçinin oğlanları Calalla Nizami pedaqoji fəaliyyətlə məşğuldurlar. Nizami Heydərov Kəlbəcər məktəblərinin birinin direktorudur. Ömür-gün yoldaşı Zərifə xala Vəli müəllimdən sonra nəvələrini başına cəm edib, Kəlbəcərə dönəcəkləri günü sayır, onlara o əlçatmazlıqlar barədə nağıl, əfsanəyə bənzər hekayələr danışır.

Böyük oğlu Calal Heydərov mənə yazdığı qısa məlumatda qeyd edir ki, atası, mənim isə sevimli müəllimim Vəli Heydərov çalışdığı pedaqoji və şagird kollektivinin rəğbətini qazanmaqla ürəklərə yol tapıb. O, həmçinin respublika Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl maarif xadimi", "Sosializm yarışının qalibi", "Baş müəllim", "Metodist müəllim" kimi fəxri adlara da layiq görülüb.

Kəlbəcərsizlik Vəli müəllimi də doğma yurdundan və sevimli məktəbindən uzaq saldı. 1993-cü ilin aprel ayından, yəni Kəlbəcərdən didərgin düşdükdən sonra bir müddət Naftalan şəhərində müvəqqəti məskunlaşdığı üçün 28 N-li Kəlbəcər tam orta məktəbində çalışdı. Müəllimimin son iş yeri isə 122 nömrəli Kəlbəcər tam orta məktəbi oldu. 2010-cu ildən təqaüdə çıxan Vəli Heydərov da kəlbəcərsizliyə dözə bilmədi. Tərki-vətənlik, yurd-yuvasızlıq digər kəlbəcərlilərimiz kimi, 2018-ci il dekabrın 19-da ulu Gəncədə onun da ömrünə son nöqtə qoydu.

Dərd budur ki, dərs dediyi hər bir şagirdin qəlbində özünə abidə ucaldan müəllimlərimiz dünyadan köçəndə son ehtiramımızı bildirə bilmirik. Axı, Vəli müəllim kimi ziyalılarımız ömürlərini yeni nəsillərin yalnız təlim-tərbiyəsinə deyil, həm də Vətəni sevməyə, onun tarixini bilməyə həsr edib.

Budur, Kəlbəcərdən didərgin düşdüyümüz illərin bizə verdiyi dərdlərdən biri: ayrılıq var, ölümdən də betərdi.

Orta məktəbdə yaxşı oxuyan şagirdlərini öz balası kimi çox istəyən Vəli müəllim rayonda istər mədəniyyət evində, istərsə də "Yenilik" qəzeti redaksiyasında çalışanda necə fərhlə mənimlə görüşdüyünü unuda bilərəmmi? Mühasirə, işğal, ölüm-itim imkan vermədi ki, müəllimlərimi ürəyim istədiyi, layiq olduqları səviyyədə xalqa təqdim edək. Axı, onların hər biri, eləcə də Vəli müəllim buna layiq idi. Qədim müəllimin şəhid balasından yazanda necə uşaqlaşdığının şahidi olanda ölüb-dirilirdim. İsmayıl Camalov mənim haqqımda yazdığı məqaləyə bilirsizmi nə ad vermişdi: "Müəllim də şagirdi qarşısında imtahan verərmiş". Bədii yaradıcılığına həsr elədiyimiz kitabını buraxanda bir daha duydum ki, doğrudan müəllim də öz şagirdi qarşısında imtahan verirmiş.

### Sinəm dərd-sərini açır bu gecə

***Bəli, belə unudulmaz müəllimlərimizin hesabına cəmiyyətdə mövqe tuturuqsa, Ulu Öndər müəllimini özündən yuxarı hesab etdiyini dilə gətirirsə, biz nədən öz mənəvi borcumuzu verməyək ki?***

***Vəli müəllim mənim üçün elə Kəlbəcərdəki kimi, ağıryerişli, qürurlu, 'zəhmli', qətiyyətli, yeri gələndə isə sakit, təmkinli olduğu qədər də daxili fırtınalarla dolu dərya kimidir. Onun həyatda olmamasına inanmaram. O, var! Olacaq və qəlbimizdə yaşayacaq!***

Müəllimimin şərəfli ömür yolunu sona kimi təngnəfəs gəldim, bilmirəm ki, hansı döngələrdə oturub nəfəsimi dərdim. Bircə onu bilirəm ki, mən Onunla canlı kimi danışıram.

Vəli müəllimin balaları, Zərifə xala, siz heç düşünməyin ki, bizim sevimli müəllimimiz yanımızda deyil. Yanımızda deyil, canımızda, qəlbimizdə, ruhumuzdadır, böyüyümüz kimi. Böyüklükdən əskik olmadı heç vaxt! Siz də müəllimimizin müqəddəs ruhunu Kəlbəcərin səmalarında axtarın! O, bizdən etibarlı imiş, atam Nəriman, anam Güllər, Kəlbəcərsizliyə dözməyən neçə-neçə kəlbəcərlilərimiz - Bəhmənimiz, Sücaətimiz, Qəmkeşimiz, Aşıq Xalıqverdimiz, adlarını çəkə bilmədiyim, şərəfli ömür yollarından 30-dək kitab yazdığım şəhidlərimiz kimig

Bu sonluğu bir şeirlə bitirmək də mənim qələm və qəlb borcum olsun:

**Xəyalım dolanır, fikrim perikir,**
**Ruhum o dağlara uçur bu gecə.**
**Yuxum ərşə qalxıb ah-nalə kimi,**
**Sinəm dərd-sərini açır bu gecə.**

**Qələmimə qüvvət, dilimə qurban,**
**Məni yetişdirən elimə qurban.**
**Dağda çəmənimə, gülümə qurban,**
**Dərdlərim üstümə qaçır bu gecə...**

**Kəlbəcər qışda da gülüstan idi,**
**Bu hüsnü dillərdə bir dastan idi.**
**Məhəmməd, bir barlı bağ-bostan idi,**
**Talanıb, dağılıb uçur bu gecə...**